**Edilov E.Z., Gasimova N.A., Aliyev B. A.**♦

**DOI:** 10.25108/2304-1730-1749.iolr.2018.54.100-118

# Political extremism in Azerbaijan

**Abstract**: Today, political extremism, terrorism and radicalism are taking place in the world. Throughout history, extremists have come face to face with all the nations of the world. Indeed, political extremism acts as one of the greatest challenges of the era. Even in the national and religious extremism, we can see the signs of political extremism.

Political extremism is a politically-motivated activity aimed at fomenting political discrimination and hostility in the society in order to violate the sovereignty and territorial integrity of the state, forcibly seize power or change the state.

Genius personality Haydar Aliyev's conclusive and purposeful policy has put an end to the slumber games, political anarchy and extremism that threaten Azerbaijan, the crime in the country has been prevented, all illegal armed groups have been abolished, and in general the conditions for the successful state building process in Azerbaijan.

♦ **Edilov Elburus Zaitkhan oglu** - Researcher of "The legal provision of state security" Department of the Institute of Law and Human Rights of ANAS (Azerbaijan). E-mail: edilov-elburus@mail.ru
**Gasimova Naila Azad qizi** - Senior Research Fellow of "The legal provision of state security" Department of the Institute of Law and Human Rights of ANAS (Azerbaijan). E-mail: naila.qasimova1967@gmail.com
**Aliyev Bakhtiyar Abdurahman oglu** – PhD in Law, Associate Professor, Head of the Department "Legal provision of state security" of the Institute of Law and Human Rights of the National Academy of Sciences of the Republic of Azerbaijan (Azerbaijan). E-mail: antiterror-baku@mail.ru

As a result, it should be noted that political extremism differs from other forms of extremism that political extremism does not accept the way of negotiation and compromise, but at the same time countering the solution of social and political problems by consensus. Supporters of political extremism are different from those who do not accept their political views, with extreme intolerance towards almost everybody. There are no 'political rules' for them, and they even demonstrate intolerance towards their partners who do not accept their political views.

In the issue of political extremism, not only the state, but ordinary citizens must also be careful and fight against this process.

**Keywords:** historical roots of political extremism; the essence of political extremism; political extremists; political extremism in the Republic of Azerbaijan.

Bu sahədəki tədqiqatçıların fikirlərinə görə, ekstremizm ifrat baxış və hərəkətlərlə bağlı bir termindir. Belə ki, ekstremizm – latın sözü olan "ekstremus" sözündən əmələ gəlmişdir. Bu termini ilk dəfə qədim yunan filosofu Aristotel tərəfindən işlədilmişdir ki, bu da "ifrat", "son hədd" mənasını verir [3].

Bəşər tarixi göstərir ki, ekstremizmlə bütün dünya millətləri tarix boyu üz-üzə gəliblər. Məsələn, tarix axarında bir çox dövlətlərdə hökumətlər xarici müdaxilələrlə mübarizə metodu kimi ölkəni bir qalaya çevirirdilər, qəddar mərkəzləşmə, hakimiyyətə sözsüz itaət, hüquq və azadlıqların məhdudlaşdırılması ilə müşayət olunan daxili və xarici siyasət özü də ifrat metodlarla həyata keçirilirdi. Bundan sonra ölkədə baş verən gərginlik siyasi ekstremizmə gətirib çıxarırdı.

Qeyd etmək lazımdır ki, ekstremizmi doğuran amillər müxtəlifdir. Bunlar sosial-iqtisadi amillər, əhalinin həyat səviyyəsinin kəskin şəkildə aşağı düşməsi, bəzi siyasi liderlərin ambisiyası, əhalinin əksər hissəsinin sosial problemlərinin həll olunmaması və bunun nəticəsində əhalinin əhval-ruhiyyəsinin pisləşməsi, fərdlərin öz sosial-siyasi hüquqlarının qorunmasına inamsızlığın yaranması, siyasi liderlərin

öz siyasi fəaliyyətlərində eksterimal vasitələrdən istifadə etməsi və s. ilə bağlıdır [2].

Bunu da qeyd etmək yerinə düşər ki, siyasi fikir tükənəndə də siyasi ekstremizm başlaya bilər. Yuxarıda qeyd edildiyi kimi ekstremizm (extremus-ən son hədd) ən son metodlara maraq, ifratçı kimi fəaliyyətlər hesabolunur.

Amma siyasi ekstremizmin daha sadə formaları da var. Siyasi ekstremizm digər növlər (iqtisadi, dini) kimi ifratçılıq və həyata keçirilmə formalarına görə ayrılır. Eyni zamanda qəbul etmək lazımdır ki, hər şeyin ifratı axmaq və mənasızdr. Ekstremizmdə isə bu həm də təhlükəlidir. Çunki ekstremizm manevr etmək üçün əlavə şans buraxmır. O səbəbdən də bir çox halda növbəti addım terrorizmlə bitir.

Terrorizm özü də ekstremizmdə ekstremizmdir.Yəni bu sahədə siyasi ekstremizm, terrorizm və ksenofobiya (ictimaiyyət arasında kütləvi şübhə meyllərinin artırılıması, yadlara nifrətin aşılanması) eyni anlamlar olmasalar da harda isə bir-birlərini tamamlayırlar.

Problem ondadır ki, cəmiyyət ekstremizmin müxtəlif təzahürlərinə passiv münasibət göstərir, dövlət isə hüquqi və siyasi reaksiyadaçox hallarda gecikir.Əgər ekstremist hərəkatların fəaliyyəti dövlət və cəmiyyət tərəfindən əks təzyiq almırsa, bütün ictimai siyasi həyat eroziyaya uğramağa, konstitusyon əsaslar laxlamağa başlayır.Sonunda ekstremizmin səviyyəsi artır.

Təcrübə göstərir ki, ekstremizm, terrorizm, rüşvətxorluq, narkomaniya və başqa bu kimi xəstəliklərlə tək hakimiyyətin yuxarıdan fəaliyyəti ilə mübarizə aparmaqo qədər də asan deyil.Cəmiyyətin dəstəyimütləq vacibdir [7].

Beləliklə, istiqamətinə görə ekstremizm ən təhlükəli formalarından biri olan siyasi ekstremizmə aşağıdakı kimi tərif verə bilərik:

Siyasi ekstremizm – siyasi ekstremizm mövcud siyasi sistemin dağıdılması, ölkədə radikal “sağ” və “sol” təmayüllü siyasi rejimin yaradılmasından ibarətdir [1].

Qısaca olaraq, siyasi ekstremizmə İtalya dövləti nümunəsində nəzər yetirsək görərik ki, İtalyan vətəndaş müharibəsi və İtaliyadakı nazi işğalı, yeni bir demokratiyanın doğulmasından əvvəl kritik bir dövrdə meydana gəldi və ilk dəfə olaraq italyanlar siyasi mənsubiyyətlərini seçərək, siyasi şəxsiyyətləri müəyyən etmək şansı əldə etdilər. Biz kommunist partiyasının müharibədən sonrakı seçkilərdə səs qazanmasından da görə bilərik ki, nasist işğalı və vətəndaş müharibəsi, əsasən mərkəzçi və katolik partiyaların hesabına davam edirdi. Qeyd edək ki, bu təsir 1990-cı illərin əvvəllərinə qədər davam etmişdir. Xarici işğal və vətəndaş müharibəsi yeni doğulmuş İtalyan demokratiyasında siyasi ekstremizm və qütbləşmənin davamlı irsini ehtiva edirdi. Vətəndaş müharibəsi və şiddətli xarici işğalı siyasi ekstremizmə gətirib çıxarmışdır [5].

Ümumiyyətlə, Qərb ənənəsində siyasi ekstremizm anlayışı qeyri-demokratik aktorların araşdırılması ilə sıx bağlıdır. Konsepsiyanın dəyərli öhdəliyi, ifadə etdiyimənə və siyasi müzakirələrdə qeyri-adi polemik istifadənin olmaması çoxsaylı mübahisələrə səbəb olub.

Siyasi ekstremizm özündən başqa bütün fikirlərə qarşı dözümsüzlük, başqalarının həyatına, azadlığına və insan hüquqlarına hörmətsizlik göstərən siyasi məqsədlərə nail olmaq vasitələridir [4].

Siyasi ekstremizmin tərəfdarı olan insanlar məcburi siyasi ideologiyalara sahib olmağa meyllidirlər, çünki bu ideologiyalar daha mürəkkəb siyasi perspektivlərdən daha sadədir.

Daha çox mürəkkəb siyasi alternativlərdən (yəni, siyasi ekstremizmdən) daha sadə bir seçim etmək tendensiyası siyasi baxımdan - Sol, Sağ və Mərkəz boyunca hər hansı bir nöqtədə görünə bilər.

Eyni zamanda qeyd etmək lazımdır ki, siyasi ekstremistlər inancları başlıca sosial dəyərlərdən və ideoloji çərçivədən kənara çıxan insanlardır. ABŞ-da, tipik siyasi ekstremist hirs, qorxu və nifrət - əsasən hökumətə və müxtəlif irqlərə, etniklərə və millətlərə qarşı yönəldilir.

Siyasi ekstremistlər demokratiya və insan haqlarının əsas prinsiplərinə qarşı çıxırlar. Əsasən, Sağçı ekstremistlər və sol qanad ekstremistləri var. Bəzi siyasi ekstremistlər, şiddət də daxil olmaqla, ideoloji cəhətdən idarə olunan cinayətkarlıq fəaliyyəti ilə məşğul olurlar.

1999-cu ildə ABŞ-da İstintaqın Federal Bürosunun hesabatında deyilir: "Son 30 ildə ABŞ-da baş verən ölümcül terror hücumlarının əksəriyyəti deyil, hamısı - yerli ekstremistlər tərəfindən törədilmişdir" [8].

Siyasi ekstremizm eyni zamanda siyasi sistemin yerini dəyişdirməyi və ya əsaslı şəkildə dəyişdirməyi hədəfləyən məqsədəuyğun bir dağıdıcı siyasi fəaliyyətdir [6].

Biz siyasi ekstremizmin nə olduğunu Azərbaycan Respublikasının Qanunlarında da görə bilərik, belə ki:Azərbaycan Respublikasının konstitusiya quruluşunun və ya ərazi bütövlüyünün parçalanmasına, yaxud hakimiyyətin zorla ələ keçirilməsinə yönələn hərəkətlərin törədilməsi;qanunsuz silahlı birləşmələrin və ya qrupların yaradılması, həmin birləşmə və ya qruplarda iştirak edilməsi;terror fəaliyyətinin həyata keçirilməsi və s. kimi hallar siyasi ekstremizmin əlamətləridir [9].

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, şeyxülislam Allahşükür Paşazadənin sözləri ilə desək, siyasi ekstremizm və ya dini-siyasi ekstremizm Qafqaz xalqları üçün təhlükə mənbəyidir [10].

Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində baş vermiş siyasi ekstremizm hallarını da qeyd etmək lazımdır. 1980-ci ilin sonlarında SSRİ və dünyada, keçmiş sosializm sistemində yaşanan proseslər bir çox digər xalqlar kimi Azərbaycan xalqının da çoxəsrlik müstəqil dövlətçilik ideyalarının reallığa çevrilməsi üçün tarixi şans yaratdı. Lakin belə əlverişli tarixi şəraitdə Azərbaycan bir çox obyektiv və subyektiv çətinliklərlə üzləşdi, həm daxili, həm də xarici aləmdən qaynaqlanan problemlər yaşadı, xalqın müstəqillik əzmi və iradəsi ciddi sınağa çəkildi. Həmin dövrdə bir yandan ermənilərin Dağlıq Qarabağa ərazi

iddiaları ilə çıxış etməsi və işğalçı rejimin SSRİ rəhbərliyi tərəfdən dəstəklənməsi, digər tərəfdən respublikaya rəhbərliyinin səriştəsiz və məsuliyyətsiz siyasəti, milli maraqlara zidd mövqeyi, vətəndaş birliyi və effektli dövlət idarəçiliyi yarada bilməməsi ölkəni ciddi daxili böhrana düçar etmişdi.

Bəhs olunan dövrdə müxtəlif ictimai-siyasi qüvvələrin hakimiyyət uğurunda ölüm-dirim mübarizəsi aparması və öz məqsədlərinə çatmaq üçün silahlı qarşıdurmalar, vətəndaş müharibəsi törətməsi – bir sözlə siyasi ekstremizm Azərbaycanı ciddi təhlükə ilə üz-üzə qoymuşdu. Ölkə əhalisi yaranmış ağır və mürəkkəb vəziyyətdən çıxış yolunu yalnız müdrik dövlət xadimi Heydər Əliyevi ali hakimiyyətə dəvət etməkdə görürdü və bu istiqamətdə müxtəlif təşəbbüslərlə çıxış edirdi. Lakin respublika rəhbərliyi bu müdrik Liderin hakimiyyətə gedən yolunu bağlamaq üçün əvvəlcədən düşünülmüş bir çox tədbirlər görmüşdü. Belə ki, “Azərbaycan Respublikasının president seçkiləri haqqında” Qanununa son beş il ərzində respublikada yaşamayan və yaşı 65-dən yuxarı olan şəxslərin namizəd verilməsini qadağan edən maddə əlavə etmişdi. Əslində bu, qanun yalnız Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsinin qarşısını almaq üçün məqsədli şəkildə atılan addım idi. Buna etiraz əlaməti olaraq 1992-ci il aprelin 25-30-da Bakıda Ali Sovetinin binası qarşısında keçirilən kütləvi xalq mitinqlərində çıxış edənlər Heydər Əliyevin respublika prezidentliyinə namizədliyinin irəli sürülməsini məhdudlaşdıran maddənin qanundan çıxarılmasını, Milli Liderə qarşı təzyiq və təqiblərin dayandırılmasını, Ali Sovetin sessiyasının çağırılmasını və təcili tədbirlərin görülməsini tələb edirdilər. Analoji mitinq 1992-ci il mayın 5-də Naxçıvan MR, sonrakı aylarda Azərbaycanın digər bölgələrində də keçirildi. 1992-ci il mayın 18-də Ali Sovetin növbədənkənar sessiyasında parlamentin yeni sədrini seçmək məsələsinin müzakirəsi zamanı bir qrup deputat tərəfindən Heydər Əliyevin namizədliyi irəli sürüldü. Lakin Cəbhə-Müsavat qüvvələrini və keçmiş kommunist nomenklaturasını təmsil edən bir qrup şəxs bu təkliflərin həyata keçirilməsinə cidd-cəhdlə mane oldu. Çünki onlar Heydər Əliyevin xalq arasındakı

yüksək nüfuzunu, zəngin idarəçilik təcrübəsini qısqanclıqla qarşılayır və hesab edirdilər ki, onun Azərbaycanın rəhbərliyinə gəlişi onların hakimiyyətə yolunu bağlayacaq. Təəssüf ki, həmin dövrdə bu birliyin anti-Əliyev və anti-xalq mövqeyi parlamentdə üstünlük təşkil etdi [12].

Hər şeydən öncə bilmək lazımdır ki, Heydər Əliyevin xarizmatik liderlik keyfiyyətləri və milli iradəsi, siyasi uzaqgörənliyi, idarəçilik istedadı və dövlətə rəhbərlik etmək bacarığı, qlobal düşüncə tərzi və s. keyfiyyətləri onun həyatının mühüm bir mərhələsini təşkil edən 1990-1993-cü illərdəki fəaliyyətində - Azərbaycanın müstəqilliyi və milli dövlətçiliyi uğrunda apardığı mübarizə dövründə daha qabarıq formada üzə çıxmışdır. Xüsusən, 1990-cı ilin əvvəllərində Azərbaycan xalqının ciddi və taleyüklü problemlər qarşısında dayandığı bir dövrdə Heydər Əliyev öz həyatını təhlükə qarşısında qoyaraq milli mübarizə meydanına atılmış, misilsiz tarixi xidmətlər göstərmiş və Azərbaycanın müstəqilliyinin, milli dövlətçiliyinin, milli birliyinin qorunub saxlanılmasında, xalqın məhv olmaq təhlükəsindən xilas edilməsində qurtuluş missiyası həyata keçirmişdir.

Heydər Əliyevin müstəqil və demokratik Azərbaycan uğrunda apardığı mübarizə, respublikanın ağır faciələrdən, siyasi ekstremizm hallarından, siyasi, sosial-iqtisadi və mənəvi-psixoloji böhrandan qurtuluşu naminə öz üzərinə götürdüyü missiyanı unutmaq olmaz.

1993-cü ilin ortalarına doğru hakimiyyət böhranı getdikcə daha kəskin xarakter almışdı. Bu dövrdə hakimiyyətdə olan qüvvələr öz səriştəsiz əməlləri ilə Azərbaycanın müstəqilliyi üçün real təhlükə yaratdılar. Xalqımızın ümummilli lideri Heydər Əliyev bu mərhələni belə xarakterizə edirdi: “Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci

tərəfdən daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı...” [13].

Təəssüf ki, 1991-1993-cü illərdə bu istiqamətdə heç bir iş aparılmamışdı. Müstəqil Azərbaycan dövlətinin keçdiyi yeni mərhələdə ölkənin iqtisadi, siyasi maraqları, təhlükəsizliyi, ərazi bütövlüyünün təmin olunması ilə bir araya sığmayan daxili və xarici siyasəti müstəqil dövlətçiliyə, onun sonrakı taleyinə ağır zərbələr vurdu. Azərbaycanda Ermənistanın təcavüzü ilə yanaşı, daxili ictimai sabitlik də pozulmuş, müxtəlif qanunsuz silahlı dəstələr yaradılmış, siyasi ekstremizm halları da çoxalmış və ölkənin daxilində qızğın hakimiyyət çəkişməsi başlanmışdı.

Bu dövrdə hökumətin daxili və xarici siyasətini xarakterizə edən əsas cəhət aydın, ardıcıl və prinsipial bir kursun olmaması idi. Dövlət idarəçiliyi vahid bir konsepsiya və sistem əsasında deyil, məsul vəzifə sahiblərinin qrup maraqlarını ifadə edən təsadüfi bəyanatlar, əksər hallarda bir-birini inkar edən, ziddiyyətli və emosional çıxışlar üzərində qurulurdu. XX əsrdə xalqımızın gərgin əməyi ilə yaradılmış qüdrətli iqtisadi potensial amansızcasına dağıdıldı, milli sərvətlər talan edildi. İctimai-siyasi həyatda, iqtisadiyyatda hərc-mərclik, bir qarışıqlıq, “dövlət reketi” hökm sürürdü. Belə düşünülməmiş və səriştəsiz siyasət milli və vətəndaş qarşıdurmasının kəskinləşməsinə, hakimiyyətin ölkə daxilində öz nüfuzunu itirməsinə gətirib çıxardı. Beləliklə, 1991-1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər, hətta müstəqilliyimiz üçün təhlükə törədən bir çox təzahürlərin əmələ gəldiyi, siyasi ekstremizmin tüğyan etdiyi bir dövr kimi səciyyələndirilə bilər [14].

Doğurdan da xaricdən maddi dəstək almış və sabitliyin pozulmasına, vətəndaş cəmiyyətinin parçalanmasına yönəlmiş siyasi ekstremizm ciddi təhlükəyə çevrilə bilər.

Diqqət etsək görərik ki, Yaxın Şərqdə həyata keçirilən iyrənc ssenari yaxın illərdə Azərbaycan üçün də hazırlanmışdı. 2011-ci və 2012-ci illərdə bəzi xarici

dairələr Azərbaycanda sabitliyi pozmaq, ölkəni xaos və hərc-mərclik, iqtisadi tənəzzül və siyasi ekstremizm girdabına, mənəvi-əxlaqi və intellektual böhrana sürükləmək üçün əllərindən gələni etdilər. "Beşinci kolon"un Azərbaycana girməsi və vəziyyətin gərginləşməsinə səbəb olması məqsədilə böyük məbləğdə pullar, on milyonlarla dollar sərf olundu.

Həmin ekstremist qüvvələrə xarici qüvvələr tərəfindən vəziyyətin gərginləşdirilməsi, xaricdəki müəyyən dairələrə xidmət edən şəxslərin hakimiyyətə gətirilməsi, Azərbaycanın nəzarət altına salınması, ölkəmizin özünüidarə qaydalarını, daxili və xarici siyasətdə hansı prioritetlərin seçilməsinin diktə oluna biləcəyi "oyuncağa" çevrilməsi tapşırığı verilmişdi [11].

## References


1. Dovlet Idareciliyi Nezeriyye ve tecrube [Theory of State Administration], no.1 (57), 2017.
2. Zaluzhnyi A.G. Ekstremizm: suschnost' i sposoby protivodeyistviya [Extremism: Core and Ways of Counteraction] // Sovremennoe pravo [Modern Law]. – 2002. No. 12.
3. Molodoyi uchenyi [Young scientist]. Journal, 2014, no. 5, p. 435
4. Cf. "What is political extremism". Available at: http://www.voluntaryist.com/articles/027a.php
5. Nicola Fontana, Tommaso Nannicini, Guido Tabellini. Historical Roots of Political Extremism: The Effects of Nazi Occupation of Italy, 2017, 76 p.
6. Sam Jackson Political Extremism: A Non-Normative, Comparative Definition file: ///C:/Users/Acer/Downloads/Political_Extremism_A_Non-normative_Comp%20(1).pdf
7. https://az.wikipedia.org/wiki/Ekstremizm
8. https://www.thoughtco.com/what-is-a-political-extremist-1857297

9. http://www.dtx.gov.az/pdf/qanunlar/5.pdf

10. https://www.timeturk.com/milletvekillerine-taninan-dis-implanti-hakkinin-artirilmasi-tartismalari/haber-858436

11. http://newtimes.az/az/experts/3813

12. http://az.strategiya.az/old/?m=xeber&id=14478

13. http://fhn.gov.az/newspaper/?type=view_news&news_id=2454

14. http://republic.preslib.az/az_e1-11.html